AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)

**Fakültə: İqtisadiyyat və idarəetmə**

**Təsdiq edirəm:__________________**
**"İqtisadiyyat" kafedrasının müdiri:**
**i.ü.f.d., dos. Suqra Hümbətova**

# "BEYNƏLXALQ MAKROİQTİSADİYYAT" fənni üzrə
# İŞÇİ TƏDRİS PROQRAMI
**(Sillabus)**

## I. Fənn haqqında məlumat

**Fənnin kodu:** 00172
**Fənnin növü:** seçmə
**Tədris semestri:** yaz
**Tədris forması:** Əyani, qiyabi
**Fakültə:** İqtisadiyyat və idarəetmə
**Tədris yükü:** 45 saat (30/15)
**Kredit sayı:** 3

## II. Fənnin təsviri

"Beynəlxalq makroiqtisadiyyat" UNEC-də bakalavr tələbələri üçün hazırlanmış bir semestrlik kursdur. Kurs, tətbiqi mikroiqtisadi nəzəriyyəyə və empirik təhlillərə əsaslanır. Kursda nəzəriyyə və dövlət siyasəti arasındakı əlaqəyə xüsusilə əhəmiyyət verilir. Əhatə etdiyi mövzular: Qlobal makroiqtisadiyyat: meyllər və tərəddüdlər; Tədiyyə balansı: mahiyyəti və strukturu; Cari əməliyyatlar balansının dayanıqlılığı; Cari əməliyyatlar balansının nəzəri əsasları; Cari əməliyyatlar balansı və qeyri - müəyyənlik; Real iqtisadiyyatda cari əməliyyatlar balansı; Kiçik və böyük iqtisadiyyatlarda tənzimləmə; İkili defisit: fiskal defisit və cari əməliyyatlar üzrə tərəddüdlər; Qlobal maliyyə bazarlarına inteqrasiya; Vahid qiymət qanunu, AQP və real mübadilə kursu; Xarici borcun makroiqtisadiyyatı; Monetar siyasət və nominal mübadilə kursları; Azərbaycanda beynəlxalq makroiqtisadi siyasət və tədiyyə balansı

## III. Fənnin məqsədi və vəzifələri

"Beynəlxalq makroiqtisadiyyat" fənninin tədrisinin məqsədi; Fənnin tədrisinin məqsədi beynəlxalq makroiqtisadi məsələlər haqqında –valyuta kursları, tədiyyə balamsı, ticarət balamsı, nəzənnə siyasəti, beynəlxalq və milli maliyyə - valyita siyasəti, tədiyyə balansının təshihi mexanizmi, beynəlxalaq monetar koordinasiya və stabilləşdirmə siyasəti, qlobal iqtisadi müstəviyə fokuslanan makroiqtisadi siyasətin istehsal və rifaha təsiri barədə tələbələrin bilgilərini zənginləşdirmək və onlarda müvafiq bacarıq və səriştələrin formalaşmasına dəstək olmaqdır.

## IV. Fənnin mühazirə mövzuları

1. Qlobal iqtisadiyyat: meyllər və tərəddüdlər
2. Tədiyyə balansı: mahiyyəti və strukturu
3. Tədiyyə balansı: mahiyyəti və strukturu
4. Cari əməliyyatlar balansının dayanıqlılığı.
5. Cari əməliyyatlar balansının müddətlərarası nəzəriyyəsi
6. Cari əməliyyatlar balansının müddətlərarası nəzəriyyəsi
7. Cari əməliyyatlar balansı və qeyri - müəyyənlik
8. Real iqtisadiyyatda cari əməliyyatlar balansı
9. Kiçik və böyük iqtisadiyyatlarda xarici təshihlər
10. İkili defisit: fiskal defisit və cari əməliyyatlar üzrə tərəddüdlər.
11. Qlobal maliyyə bazarlarına inteqrasiya.
12. Məcmu tələbin tərəddüdləri və real mübadilə kursu
13. Xarici borcun makroiqtisadiyyatı
14. Monetar siyasət və nominal mübadilə kursları
15. Azərbaycanda beynəlxalq makroiqtisadi siyasət və tədiyyə balansı

## V Prerekvizitlər

- Mikroiqtisadiyyat
- Statistika və ya Ekonometrika

## VI. Fənnin tədris metodologiyası

Kursda aşağıdakı tədris metod və formalarından istifadə edilir:

- Mühazirələr
- Seminarlarda problem həlli və müzakirə
- Kompüter labaratoriyalarında müstəqil iş (Excel və STATA proqramlarından isitifadə edərək ev tapşırıqlarını yerinə yetirmək, iqtisadi məlumatlarla işləmək, internetdə araşdırma aparmaq)
- Ədəbiyyatla müstəqil iş

## VII. Əsas dərslik və ədəbiyyat

**əsas dərslik**

1. International Macroeconomics Stephanie Schmitt-Grohé Martín Uribe; Michael Woodford Last updated: May 4, 2016 Columbia University

**əlavə dərsliklər**

2. Feenstra, Robert and Alan M. Taylor, International Economics, 3rd edition, New York: McGraw-Hill, 2014. (hereafter referred to as FT)
3. Obstfeld, Maurice, and Kenneth Rogoff (1996). Foundations of International Macroeconomics, MIT Press, Cambridge.
4. Kireyev A. (2014). International Macroeconomics. M., International Relations Publishers
5. Krugman, R., Obstfeld, M. International Economics. Theory and Policy. - Pearson International Edition, 2006. - 680 p. 7. Krugman, R., Obstfeld, M. International Economics. Theory and Policy. - Pearson International Edition, 2006. - 680 p
6. Feenstra, R. Advanced International Trade. Princeton University Press, 2004.
7. Copeland L. (CL) Exchange rates and International Finance, 5th edition, 2008
8. Appleyard D., Field A. and S. Cobb (AFC), International Economics, 6 thedition, 2008
9. Korinek, Anton as (2016). "Currency Wars or Efficient Spillovers? A General Theory of International Policy Cooperation." Mimeo, Johns Hopkins.

**internet resursları**

1. http://www.korinek.com/download/Spillovers.pdf
2. https://archive.org/details/internationalmac0000argy
3. https://press.princeton.edu/books/hardcover/9780691170640/international-macroeconomics
4. https://econdojo.github.io/
5. https://www.researchgate.net/topic/International-Macroeconomics/publications

## VIII. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Mühazirə məşğələ |
|---|---|---|---|
| 1 | **Qlobal iqtisadiyyat: meyllər və tərəddüdlər** | Qlobal iqtisadiyyat dünya üzrə malların, xidmətlərin, kapital və işçi qüvvəsinin hərəkətini əhatə edir. Son dövrlərdə qloballaşma, rəqəmsallaşma və yaşıl iqtisadiyyat kimi meyllər güclənir, inkişaf etməkdə olan ölkələrin rolu artır. Eyni zamanda ticarət müharibələri, maliyyə bazarlarının qeyri-sabitliyi, geosiyasi risklər və texnoloji asılılıq tərəddüdlər yaradır. Bu şəraitdə ölkələr qlobal iqtisadi meylləri düzgün idarə etməli və dayanıqlılığı təmin etməlidirlər. | 2/2 |
| 2-3 | **Tədiyyə balansı: mahiyyəti və strukturu International** | Tədiyyə balansı ölkənin xarici ödəniş əməliyyatlarını əks etdirən maliyyə sənədidir. O, ölkəyə daxil olan və çıxan valyuta axınlarını göstərir və iqtisadi sabitliyin göstəricisi hesab olunur. Struktur olaraq tədiyyə balansı üç əsas hissədən ibarətdir: cari hesab (mallar, xidmətlər, gəlirlər və cari köçürmələr), kapital hesab (investisiyalar və borclar) və maliyyə hesab (kapitalın hərəkəti və | 4/4 |

| | | | |
|---|---|---|---|
| | | sərmayə əməliyyatları). Tədiyyə balansı ölkənin xarici ödəniş əməliyyatlarını əks etdirir və valyuta axınlarını göstərir. Onun strukturu cari hesab, kapital hesab və maliyyə hesabından ibarətdir. | |
| **4** | **Cari əməliyyatlar balansının dayanıqlılığı.** | Cari əməliyyatlar balansının dayanıqlığı ölkənin xarici ticarət və ödəniş əməliyyatlarının uzunmüddətli sabitliyini göstərir. Əsas meyarlar valyuta gəlirlərinin xərcləri ödəməsi, ixracın ixracat potensialına uyğunluğu və davamlı xarici investisiyaların mövcudluğudur. Dayanıqlılıq ölkənin iqtisadi stabilliyi və valyuta ehtiyatlarının kifayətliliyi ilə də müəyyən olunur. | 2 /2 |
| **5-6** | **Cari əməliyyatlar balansının müddətlərarası nəzəriyyəsi** | Cari əməliyyatlar balansının müddətlərarası (intertemporal) nəzəriyyəsi ölkənin ticarət və ödəniş balansını zaman üzrə optimallaşdırma prizmasından izah edir. Bu nəzəriyyəyə görə, ölkə resurslarını yalnız cari dövrdə deyil, gələcək dövrlərdə də nəzərə alaraq qərar verir. İxrac, idxal və borclanma imkanları ilə gələcək gəlirləri müqayisə edərək cari əməliyyatlar balansını tənzimləyir. Beləliklə, ölkələr müvəqqəti mənfi balansı qəbul edə bilər, əgər gələcəkdə bu balansı kompensasiya edəcək gəlir və ya sərmayə axınları gözlənilirsə. | 4/4 |
| **7** | **Cari əməliyyatlar balansı və qeyri - müəyyənlik** | Cari əməliyyatlar balansı ölkənin xarici ticarət və ödəniş əməliyyatlarının vəziyyətini göstərir, lakin iqtisadi və geosiyasi qeyri-müəyyənliklər onun stabilliyini təhdid edə bilər. Qeyri-müəyyənlik valyuta kursları, idxal-ixrac şərtləri və xarici investisiyaların dəyişkənliyi ilə bağlıdır, bu isə balansın uzunmüddətli dayanıqlığını çətinləşdirir. | 2/2 |
| **8** | **Real iqtisadiyyatda cari əməliyyatlar balansı** | Real iqtisadiyyatda cari əməliyyatlar balansı ölkənin faktiki xarici ticarət, xidmətlər, gəlir və cari köçürmələrdən əldə etdiyi net maliyyə axınlarını əks etdirir. O, iqtisadi fəaliyyətin xarici ticarət və ödəniş əməliyyatları ilə uyğunluğunu göstərir və ölkənin valyuta ehtiyatlarının kifayətliliyini, borc və investisiya imkanlarını real şəraitdə qiymətləndirməyə imkan verir. | 2/2 |
| **9** | **Kiçik və böyük iqtisadiyyatlarda xarici təshihlər** | Kiçik iqtisadiyyatlar xarici təsirlərə həssasdır, çünki qlobal bazarlara və xarici investisiyalara asılıdır, bu isə onların iqtisadi stabilliyinə birbaşa təsir göstərir. Valyuta kursları, xarici investisiyalar və dünya qiymətləri onların iqtisadi stabilliyini tez dəyişdirə bilər. Böyük iqtisadiyyatlar isə daxili bazarları geniş olduğundan nisbətən davamlıdır və həm qlobal iqtisadiyyata təsir edir, həm də xarici şoklardan müəyyən dərəcədə qorunur. Lakin böyük ölkələr qlobal ticarət və maliyyə axınlarını da formalaşdırdığından onların qərarları digər ölkələrə əhəmiyyətli təsir göstərə bilər. | 2/2 |

| | | | |
|---|---|---|---|
| 10 | **İkili defisit: fiskal defisit və cari əməliyyatlar üzrə tərəddüdlər** | İkili defisit fiskal defisit (dövlət büdcəsinin xərclərinin gəlirlərdən çox olması) və cari əməliyyatlar balansının mənfi olması ilə xarakterizə olunur. Bu vəziyyət ölkədə həm dövlət borcunun artmasına, həm də xarici ticarət və ödəniş əməliyyatlarında gərginliyə səbəb olur. İkili defisit uzunmüddətli davam edərsə, valyuta kurslarının dalğalanması, inflyasiya təzyiqləri və maliyyə sabitliyinin pozulması kimi iqtisadi tərəddüdlər yarada bilər. | 2/2 |
| 11 | **Qlobal maliyyə bazarlarına inteqrasiya** | Qlobal maliyyə bazarlarına inteqrasiya ölkələrin kapital və maliyyə resurslarının sərhədlərdən kənar hərəkət etməsi ilə xarakterizə olunur. Bu proses investisiya imkanlarını artırır, maliyyə resurslarına çıxışı asanlaşdırır və iqtisadi inkişafı sürətləndirir, eyni zamanda xarici şoklara və valyuta dalğalanmalarına qarşı həssaslığı da artırır. | 2/2 |
| 12 | **Məcmu tələbin tərəddüdləri və real mübadilə kursu** | Məcmu tələbin tərəddüdləri iqtisadiyyatın ümumi istehlak və investisiya xərclərindəki qeyri-müəyyənliklərdən irəli gəlir və iqtisadi sabitliyi pozmağa səbəb ola bilər. Real mübadilə kursu isə ölkənin valyutasının xarici valyutalara nisbətdə alıcılıq qabiliyyətini göstərir və məcmu tələbin dəyişkənliyi ilə birgə idxal-ixrac balansına təsir edərək iqtisadiyyatın tənzimlənməsində mühüm rol oynayır. | 2/2 |
| 13 | **Xarici borcun makroiqtisadiyyatı** | Xarici borcun makroiqtisadiyyatı ölkənin borc öhdəliklərinin ümumi iqtisadi göstəricilər üzərində təsirini öyrənir. Xarici borc iqtisadi artım, inflyasiya, valyuta kursları və ticarət balansı ilə sıx bağlıdır. Uğurlu borc idarəçiliyi investisiyaları maliyyələşdirir və inkişafı dəstəkləyir, lakin borcun həddindən artıq artması valyuta böhranları, maliyyə qeyri-sabitliyi və tənzimləmə problemlərinə gətirib çıxara bilər. | 2/2 |
| 14 | **Monetar siyasət və nominal mübadilə kursları** | Monetar siyasət pul kütləsinin və faiz dərəcələrinin tənzimlənməsi vasitəsilə iqtisadiyyata təsir göstərir. Nominal mübadilə kursları isə bir valyutanın digər valyutaya olan rəsmi məzənnəsini göstərir. Monetar siyasət dəyişiklikləri, məsələn, faiz dərəcələrinin artırılması və ya pul təklifinin azaldılması, nominal mübadilə kursuna təsir edərək valyuta qiymətləri və xarici ticarət balansını formalaşdırır. | 2/2 |
| 15 | **Azərbaycanda beynəlxalq makroiqtisadi siyasət və tədiyyə balansı** | Azərbaycanda beynəlxalq makroiqtisadi siyasət əsasən valyuta sabitliyinin qorunması, xarici ticarətin stimullaşdırılması və inflyasiya təzyiqlərinin tənzimlənməsi məqsədilə həyata keçirilir. Tədiyyə balansı ölkənin ixrac, idxal, xidmətlər, gəlirlər və xarici köçürmələrdən əldə etdiyi valyuta axınlarını göstərir və milli iqtisadi sabitliyin göstəricisi kimi mühüm rol oynayır. Azərbaycan neft və qaz ixracatından gələn valyuta | 2/2 |

| | | | |
|---|---|---|---|
| | | gəlirlərini tədiyyə balansının dayanıqlığını təmin etmək və makroiqtisadi siyasəti dəstəkləmək üçün istifadə edir. | |
| | **Yekun** | | **30/30** |

UNEC-də təhsilalanların cari və aralıq qiymətləndirilməsi **QAYDALARI**

**Əyani təhsilalma forması üzrə**

UNEC-də bakalavriat və magistratura səviyyələrində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavr və magistrantların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavr və magistrantların semestr ərzində topladıqları **aktivlik və ara qiymətləndirmə** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal fənlərin tədris növünə uyğun olaraq aşağıdakı qaydada formalaşır:

- tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında;
- tədrisi mühazirə, labaratoriya və seminar dərsləri ilə həyata keçirilən fənlərdə laboratoriya işləri yerinə yetirilməsinə görə və seminar dərslərində alınan ballar əsasında;
- tədrisi mühazirə və labaratoriya dərsləri ilə həyata keçirilən fənlərdə laboratoriya işlərinin yerinə yetirilməsi əsasında;
- tədrisi yalnız mühazirə dərsləri ilə həyata keçirilən fənlərdə semestr layihələrinin yerinə yetirilməsi (MBA proqramında dərs zamanı qiymətləndirmə) əsasında;
- qabiliyyət tələb edən fənlərdə fərdi işlərin yerinə yetirilməsi ilə bağlı praktik məşğələ müddətindəki fəaliyyət əsasında.

Hər semestrin əvvəlində bakalavr və magistrantlara təqdim edilən sillabuslarda hər bir fənn üzrə aktivlik balının necə formalaşması qaydası göstərilir.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

Burada,

B - yekun aktivlik balı;

b - seminar dərslərində alınan müxtəlif ballar;

s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavr və magistrantlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavr və ya magistrantların cavab verməsi üçün imkan yaradır.

Bakalavr və magistrantlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

**Ara qiymətləndirmə** - hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə yazılı cavablandırılan sual təqdim edilmir.

Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

**Aralıq qiymətləndirmə** - test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 7 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Tədris növlərinə müvafiq olaraq **cari və aralıq qiymətləndirmə** aşağıdakı qaydada və bal nisbətlərində həyata keçirilir:

- Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır;

**İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ**

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |